# Qəbələ: sosial-iqtisadi inkişafın əsas istiqamətləri

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat MƏRUZƏSİ

(Əvvəli 5-ci səhifədə).

fəaliyyət göstərən koordinasiya mərkəzləri ilə mütəmadi əlaqələr yaradılmışdır.

2018-ci ilin doqquz ayı ərzində 64 milli QHT mərkəzlə əməkdaşlıq edərək vətəndaş cəmiyyətinin inkişafına xidmət edən layihələr həyata keçirmişlər. Bu müddət ərzində mərkəzin fəaliyyətindən 105 QHT bəhrələnmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

Ölkə Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2018-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda qeyd etdiyi kimi son illər aqrar sahənin inkişafına dövlət qayğısının artması nəticəsində ölkədə bu sahədə xeyli irəliləyiş nəzərə çarpır. Qeyd etmək lazımdır ki, cari ilin doqquz ayında aqrar sahədə artım 4,2 faiz olmuşdur. Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsi vəsaiti hesabına yardımların verilməsini nəzərdə tutan Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Sərəncamı xüsusi əhəmiyyət kəsb edir. Cənab prezidentin həmin sərəncamı kənd təsərrüfatı məhsulları istehsalçılarında böyük stimul yaratmışdır. Bunun nəticəsidir ki, rayonumuzda aqrar sahədə əhəmiyyətli dəyişikliklər hiss edilir.

Sərəncamın icrası ilə əlaqədar olaraq cari ildə kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsi hesabına 1470029 manat məbləğində yardımlar hesablanmış və plastik kart vasitəsi ilə istehsalçılara çatdırılmışdır. Bundan əlavə cari ilin doqquz ayında süni mayalama yolu ilə alınmış buzovlara görə sahibkarlara 170.100 manat subsidiya verilmişdir.

Qeyd etmək lazımdır ki, taxılçılıq rayon iqtisadiyyatının əsasını təşkil edir. 2018-ci ilin məhsulu üçün 2017-cı ilin payızında 20100 hektar sahədə payızlıq dənli bitkilər əkilmişdir ki, onun da 14600 hektarını buğda, 5500 hektarını isə arpa sahələridir. Biçilmiş buğda sahələrinin məhsuldarlığı 32,6 sentner, arpa sahələrinin məhsuldarlığı isə 31 sentner olmaqla bir hektarın orta məhsuldarlığı 32,5 sentner təşkil etmişdir.

Torpaq sahibləri tərəfindən 2018-ci ildə 632 hektar kartof, 559 hektar tərəvəz əkilmişdir. Həmin sahələrdən 8215 ton kartof, 6000 ton tərəvəz istehsal edilmişdir. Qeyd etmək lazımdır ki, son illər rayonun kənd təsərrüfatı bitkilərinin əkin quruluşunda xeyli dəyişiklik aparılıb. Belə ki, heyvandarlığın yemə olan tələbatının ödənməsi üçün taxıl sahələri bir qədər azaldılmış və həmin sahələrdə yem bitkiləri əkilmişdir. Əsasən yonca, vələmir, yem noxudu və yem çuğunduru əkinlərinə diqqət artırılmışdır.

Aqrar sahədə çalışan fermerlərimiz mütərəqqi metodlar tətbiq edərək əkin sahələrinin genişləndirilməsinə deyil, məhsuldarlığın artırılmasına diqqəti artırmışlar.

Rayon üçün meyvəçilik və üzümçülük də önəmli sahələrdən hesab edilir. Hazırda rayonda 7800 hektar bağ sahələri, 621 hektar üzüm plantasiyaları mövcuddur. Həm əhalinin həmin məhsullara olan tələbatının ödənməsi istiqamətində, həm də rayondakı emal müəssisələrinin xammalla təchizatı baxımından meyvə və üzüm sahələrinin genişlənməsinə və məhsuldarlığın yüksəldilməsinə diqqət artırılmışdır.

Ölkə başçısı cənab İlham Əliyevin qeyd etdiyi kimi indi kənd təsərrüfatının hər bir sahəsi bizim üçün vacibdir. İxrac yönümlü kənd təsərrüfatı məhsulları istehsalının artırılması diqqət mərkəzində saxlanmalıdır.

Bu baxımdan fındıqçılığın mühüm əhəmiyyət kəsb etməsini nəzərə alaraq rayonumuzda əlavə olaraq 2000 hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulmuşdur. 2016-2017-ci illərdə 1218 hektar 2018-ci ilin yazında isə 120 hektar olmaqla cəmi 1338 hektar yeni fındıq bağları salınmış, bu ilin payızında əlavə olaraq 700 hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulmuşdur.

Rayonumuzda son illər barama və tütün istehsalına başlanılmışdır. Cari ildə 101 nəfər kümçü tərəfindən 9110 kq barama istehsal edilmişdir. Barama istehsalının artırılması məqsədi ilə 2016-cı ilin payızından etibarən tut tinglərinin əkilməsinə başlanılmışdır ki, bu da gələcəkdə bizə barama istehsalının artırılmasına şərait yaradacaqdır.

Cari ildə 75 hektar sahədə tütün əkilmişdir. Bu günə kimi ümumilikdə 320 ton yaş tütün qırılmış və 80 ton yaş tütün qəbul məntəqəsinə təhvil verilmişdir. Tütün təhvili davam etdirilir.

Məlum olduğu kimi yüksək məhsuldarlığın əldə olunmasında kondisiyalı toxum mühüm rol oynayır. 2018-ci ildə hüquqi və fiziki şəxslər tərəfindən rayon toxum müfəttişliyinə gətirilmiş müxtəlif kənd təsərrüfatı bitkilərinin toxumları yoxlanılmış və onlara müvafiq rəylər verilmişdir. Rayonda fəaliyyət göstərən 4 özəl toxumçuluq təsərrüfatlarının yetişdirdiyi 1081,1 hektar əkin sahəsində aprobasiya aparılmış 958,3 hektar sahənin toxumçuluq üçün yararlı olması müəyyən edilmişdir.

Biçilmiş toxumluq sahələrin məhsuldarlığı 35-45 sentner olmuşdur. Qeyd etmək lazımdır ki, rayonda növbəti ilin taxıl əkini üçün kifayət qədər yüksək kondisiyalı toxum bazası mövcuddur.

Hazırda kənd təsərrüfatı işlərinin aparılması üçün rayonumuzdakı 2 böyük və 2 kiçik aqroservisdə və 416 nəfər fiziki şəxsdə 81 ədəd taxılyığan kombayn, 29 ədəd tırtıllı, 399 ədəd təkərli traktor, 24 ədəd buldozer, 47 ədəd ekskovator və s. kənd təsərrüfatı texnikası mövcuddur.

Ötən dövr ərzində rayonumuzda iri buynuzlu mal-qaranın sayı 46036 baş, o cümlədən inək və camışların sayı 23169 baş, qoyun-keçilərin sayı 190161 baş, donuzların sayı 1135 baş olmuşdur. Görülən işlərin nəticəsində ət istehsalı (diri çəkidə) 34609 tona, süd istehsalı 314217 tona, yumurta istehsalı 17217 min ədədə, yun istehsalı isə 413 tona çatdırılmışdır. Qəbələdə 2 müasir heyvandarlıq kompleksi və 4 ədəd kiçik həcimli heyvandarlıq təsərrüfatı fəaliyyətə başladıqdan sonra rayon sakinlərinin ətə və südə olan tələbatının ödənməsində ciddi müsbət dəyişikliklər baş vermişdir.

Mal-qaranın cins tərkibinin, eləcə də damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması üçün 7 nəfər süni mayalama mütəxəssisi fəaliyyət göstərir. Keçən 9 ay ərzində süni mayalama mütəxəssisləri tərəfindən 5828 baş inək və düyələrdə süni mayalama aparılmış və süni mayalanmış heyvanlardan 3146 baş yüksək genetik potensiala malik buzovlar alınmışdır.

Qızılbalıqyetişdirmə zavodunda cari ilin doqquz ayında 110.000 ədəd kürü götürülmüş və 62.000 ədəd balıq yetişdirilmidir. Hazırda zavodda bəslənilən 16.200 ədəd balığın 10.000-nin oktyabr və noyabr aylarında Xəzər dənizinə buraxılması proqnozlaşdırılır.

**Hörmətli yığıncaq iştirakçıları!**

2018-ci ilin doqquz ayında rayon icra hakimiyyətində müasir informasiya texnologiyalarından istifadə olunmaqla vətəndaşların müraciətlərinə operativ şəkildə baxılması təmin edilmişdir.

Bu dövrdə rayon icra hakimiyyətinə ümumilikdə 631 ərizə daxil olmuşdur. O cümlədən 289 ərizə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, 11 ərizə Milli Məclisdən, 9 ərizə Nazirlər Kabinetindən, 50 ərizə mərkəzi icra hakimiyyəti orqanlarından, 272 ərizə isə vətəndaşlardan birbaşa daxil olmuşdur.

Vətəndaşlar tərəfindən göndərilən ərizələrin məzmunu əsasən onların mənzillə təmin olunması, müalicəyə göndərilməsi, ünvanlı dövlət sosial yardımın təyin edilməsi, birdəfəlik maddi yardımın verilməsi, işə düzəlmə və s. barədə olmuşdur.

Daxil olan ərizələr ətraflı öyrənilərək hər birinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada cavablar verilmişdir.

2018-ci ilin doqquz ayında vətəndaşların qəbulunun həyata keçirilməsi istiqamətində də müvafiq işlər görülmüşdür. Belə ki, doqquz ay ərzində 559 nəfər vətəndaş rayon icra hakimiyyətinin başçısı tərəfindən qəbul edilmişdir. Qəbula gələn vətəndaşların müraciəti ilə bağlı lazımi tədbirlər görülmüş, onların haqlı tələbləri qanunamüvafiq qaydada həll edilmişdir.

Eləcə də 2018-ci ilin ötən dövrü ərzində rayon icra hakimiyyəti başçısının 29 səyyar görüş-qəbulu keçirilmişdir. Qəbullarda 2596 nəfər iştirak etmişdir. Onlardan 197 nəfər çıxış edərək müxtəlif təkliflər irəli sürmüşlər.

İrəli sürülən təkliflərin və müraciətlərin 166-sı həll edilmiş, 19 məsələnin həlli ilə bağlı müvafiq izahat verilmiş, digər 12 məsələnin həlli istiqamətində respublikanın əlaqədar təşkilatları qarşısında məsələ qaldırılmışdır. Bunlar əsasən yaşayış məntəqələrinə qaz xəttinin çəkilməsi, elektrik dirəklərinin dəyişdirilməsi, yolların asfaltlaşdırılması, yeni məktəb binalrının, səhiyyə, mədəni-maarif obyektlərinin, körpülərin tikintisi, artezian quyularının qazılması və dağ çaylarında sahilbərkitmə işlərinin aparılması ilə bağlı olmuşdur.

**Hörmətli yığıncaq iştirakçıları!**

Prezident cənab İlham Əliyev Azərbaycan Respublikası Nazirlər Kabinetinin oktyabrın 9-da keçirilən 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı yekun nitqində bu ilin ötən dövrü ərzində iqtisadi sahədə aparılan köklü islahatların fonunda sahibkarları, ictimaiyyəti narahat edən vergi və gömrük sahəsində bütün lazımi addımların atılacağını bildirib.

Ölkə başçısı qeyd edib ki, gömrük orqanları bu il 800 milyon manatdan çox əlavə vəsait toplayıb, xarici ticarətin müsbət saldosu doqquz ayda 6,5 milyard dollar təşkil edib. Bununla bağlı vergidən yayınma hallarına son qoyulması, uçot sisteminin yaradılması, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması, vergi və gömrük orqanlarında şəffaflığın tam təmin edilməsi istiqamətində aparılan islahatlar, korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri davam etdirilməlidir.

Cənab Prezident qeyri-neft sektorunun inkişafı üçün çox böyük addımlar atıldığını, xüsusilə investisiya təşviqi sisteminin tətbiqindən sonra 300-dən çox investisiya təşviq sənədi verildiyini, nəticədə 20 min yeni iş yerinin yaradıldığını, icra edilən layihələrin ümumi investisiya həcminin 2,7 milyard manata çatdığını bildirmişdir.

Bu günə qədər Sahibkarlığın İnkişafı Fonduna 2,2 milyard manat vəsait ayrıldığını və bu prosesin davam etdirildiyini qeyd edən cənab İlham Əliyev iri fermer təsərrüfatlarında, xüsusən taxılçılıqda nəticələrin çox yaxşı olduğunu, hektardan orta hesabla 50 sentner məhsul götürüldüyünü və 3 milyon ton taxıl tədarük edildiyini vurğulayıb.

Ölkə başçısı yekun nitqində pambıqçılığın, tütünçülüyün, baramaçılığın, tərəvəzçiliyin, üzümçülüyün və meyvəçiliyin çox gəlirli sahə olması ilə əlaqədar dövlətin bu sahəyə dəstək verdiyini vurğulayıb və bu sahənin inkişafına xüsusi diqqət göstəriləcəyini bildirib.

Sosial sahədə də ciddi islahatların aparıldığını diqqətə çatdıran cənab İlham Əliyev deyib ki, şəhid ailələrinə, müharibə veteranlarına, əlillərinə mənzil və maşın verilməsi üçün Prezidentin ehtiyat fondundan 20 milyon manat vəsait ayrılıb. Məcburi köçkünlərə 100-dən çox şəhərcik salınıb və doqquz ayda 2900 məcburi köçkün ailəsi mənzillə təmin olunub. İlin sonuna qədər əlavə 2800 ailə evlə təmin ediləcək. Beləliklə, bu il 5700 ailə - təxminən 25 min insanın evlə təmin olunacağı nəzərdə tutulub.

Dövlət başçısının iclasdakı yekun nitqində bu il ölkədə yüzlərlə məktəbin təmir edildiyi, o cümlədən 137 modul tipli məktəbin tikildiyi, 42 tibb müəssisində təmir-tikinti işlərinin aparıldığı səslənib.

Eləcə də ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində - havanın çirkləndirilməsinə, ağacların kəsilməsi hallarına son qoyulması barədə qəti tapşırıq verilib.

Bakı şəhərində və regionlarda qanunsuz tikililərə yol verilməməsi ilə bağlı Sərəncam imzalandığını, bu qaydanı pozan şəxslərin cinayət məsuliyyətinə cəlb ediləcəyini və qanunsuz tikilən binaların dərhal söküləcəyini bildirilib.

Cənab Prezident tərəfindən iclasda məişət tullantılarının daşınması, binaların həyətlərinin abadlaşdırılması, həyətlərin bütün qanunsuz tikililərdən təmizlənməsi, parkların, xiyabanların salınması tövsiyə olunmuşdur.

Yekunda Bakı-Qəbələ dəmir yolunun çəkilişi ilə bağlı işlərin getdiyini qeyd edən cənab Prezident gələn ilin əvvəlində regionların növbəti sosial-iqtisadi inkişafı dördüncü Dövlət Proqramının qəbul ediləcəyini deyib.

**Hörmətli yığıncaq iştirakçıları!**

2018-ci ilin doqquz ayı ərzində rayonumuzda görülən işlər və bu işlərin yerinə yetirilməsi istiqamətində rayon icra hakimiyyətinin, digər idarə, müəssisə və təşkilatların fəaliyyəti barədə Sizə qısa məlumat verdim.

Əldə edilən uğurlar bizi qarşımızda duran məsuliyyətli vəzifələrin daha inamla həyata keçirilməsinə ruhlandırır. Əminliklə bildirmək istəyirəm ki, Qəbələ Rayon İcra Hakimiyyəti əlamətdar və tarixi hadisələrlə zəngin olan 2018-ci ili daha böyük nailiyyətlərlə başa çatdırmaq üçün fəaliyyətini genişləndirəcək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Respublikası Nazirlər Kabinetinin oktyabrın 9-da keçirilən 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında verdiyi göstəriş və tövsiyələrinin, eyni zamanda qanunvericiliklə üzərinə düşən vəzifələrin yerinə yetirilməsinin təmin edilməsi ilə bağlı lazım gələn bütün tədbirləri həyata keçirəcəkdir.

**Diqqətinizə görə sağ olun.**